*UOT 37.01*

***Sahib Əmirxan oğlu Məmmədov***
*Mingəçevir Dövlət Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*əməkdar müəllim*
https://orcid.org/ 0000-0002-7064-726X
*E-mail: sahibmemmedov588@gmail.com*
*https://doi.org/*10.69682/arti.2025.92(6).102-105

## TƏLƏBƏ ŞƏXSİYYƏTİ VƏ ONUN HƏRTƏRƏFLİ ÖYRƏNİLMƏSİ

***Sahib Amirkhan Mamedov***
*associate professor at Mingachevir State University,*
*doctor of philosophy in pedagogy, Honored teacher*

## STUDENT PERSONALITY AND ITS ALL-AROUND LEARNING

***Сахиб Амирхан оглу Мамедов***
*доцент Мингячевирского Государственного Университета,*
*доктор философии по педагогике, Заслуженный учитель*

## ЛИЧНОСТЬ СТУДЕНТА И ЕГО ВСЕСТОРОННЕЕ РАЗВИТИЕ

**Xülasə**. Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq tələbələrə dolğun, sistemli, yararlı, hərtərəfli bilik və bacarıqların aşılanması əsas şərtlərdəndir. Bu zamanın infrastrukturudur, tədris müəssisələri və insan resursları inkişaf etdirilməlidir. Təhsilin müasir şərtlərlə inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, eyni zamanda hər bir fərdin həyatının daha ali səviyyədə qurulması və inkişafı üçün zəmin yaradır. Ali təhsil müəssisələrində tələbələrin bir şəxsiyyət kimi formalaşması üçün onları mütəmadi olaraq mühazirə, seminar məşğələləri və auditoriyadankənar tədbirlərə cəlb edirlər. Tələbələrin təhsili və tərbiyəsi qeyd edilən tədbirlərin səviyyələrindən çox asılıdır. Hər şeydən əvvəl tələbə auditoriyası düzgün idarə olunmalıdır. Tələbələrimizə sevgi, qayğı ilə yanaşılmalıdır.
***Açar sözlər:*** *auditoriya, tələbə auditoriyası, auditoriyanın idarə olunması, müəllimin davranışı, tələbə şəxsiyyəti*

**Abstract.** According to the Development Concept of the Republic of Azerbaijan, one of the key conditions is the imparting to students of extensive, systematic, useful, and comprehensive knowledge and skills. Currently, it is necessary to develop infrastructure, educational institutions, and human resources. At higher education institutions, students are involved in lectures, seminars, and extracurricular activities to acquire the necessary knowledge and prepare them for their specialization. The level of education and development of young people depends on the degree of organization of these activities. First, the student body must be properly managed. Students must be treated with love and care.
***Keywords:*** *the audience, student audience, audience management, the behavione of teacher, students personality*

**Аннотация.** В соответствии с Концепцией развития Азербайджанской Республики, одним из главных условий является передача студентам обширных, систематических, полезных, всесторонних знаний и умений. В настоящее время необходимо развивать инфраструктуру, образовательные учреждения и человеческие ресурсы. В высших учебных заведениях студенты для привития им необходимых знаний и подготовки к специальности привлекаются к лекциям, семинарским занятиям и внеаудиторным мероприятиям. Уровень обучения и воспитания молодежи зависит от степени организованности данных занятий. Во-первых, студенческая аудитория должна быть правильно управляема. К студентам следует относиться с любовью и заботой.
***Ключевые слова:*** *аудитория, студенческая аудитория, управление аудиторией, поведение учителя, личность студента*

Bu gün dünya ölkələrində ali təhsilin inkişaf etdirilməsi cəmiyyətin qarşısında duran ən vacib məsələlərdən biri kimi daim diqqət mərkəzindədir. XX yüzilliyin sonu, XXI yüzilliyin əvvəllərindən başlayaraq təkcə ayrı-ayrı dövlətlər deyil, beynəlxalq birliklər, təşkilatlar tərəfindən də ali təhsilin inkişafı ilə bağlı bir sıra zəruri tədbirlər həyata keçirilir. Hər bir ölkənin sosial-iqtisadi, mədəni-siyasi və digər sahələrdə hədəflərinin müəyyənləşdirilməsi və reallaşdırılmasında ali təhsilin rolu əhəmiyyətli dərəcədə artmışdır. Bu gün ali təhsilin cəmiyyətin bütün təbəqələri, hər kəs üçün "əlçatan" olması, "mümkünlüyü" ideyası təqdir olunur. Belə ki, cəmiyyətin inkişafı rəqabətəqabil, müxtəlif səriştələrə yiyələnmiş şəxsiyyətin formalaşmasını tələb edir. Bu xüsusda ali təhsil müəssisələrində ən vacib məsələlərdən biri tələbə şəxsiyyətinin formalaşdırılmasıdır. Hər bir tələbə ixtisası üzrə müvafiq bilik və bacarıqlara, zəruri səriştələrə yiyələnməli və nəticə etibarilə özünü yetkin şəxsiyyət kimi dərk etməli, cəmiyyətin fəal üzvü kimi üzərinə düşən məsuliyyət yükünü daşımağa hazır olmalıdır.

Tələbə şəxsiyyəti digər yaş qrupuna aid olan insanlardan özünün spesifik xüsusiyyətləri ilə, o cümlədən dünyanın dərk olunmasında, yeni informasiya texnologiyalarının mənimsənilməsində fəallığı ilə seçilir. Bütün bunlarla yanaşı sosial-iqtisadi və mədəni-siyasi həyatın yeni formalarına uyğunlaşma, yiyələnmə imkanları ilə, eyni zamanda ünsiyyət və davranışdakı səciyyəvi xüsusiyyətləri ilə də fərqlənir. Araşdırmalar göstərir ki, tələbə şəxsiyyətinin formalaşdırılması, həqiqətən, mürəkkəb bir prosesdir. Çoxmərhələli olan bu proses müasir elmi-nəzəri və praktik yanaşmalar tələb edir. Bu baxımdan tələbə şəxsiyyətinin formalaşmasında aşağıdakı elmi-nəzəri yanaşmaların nəzərə alınması məqsədəuyğundur: 1) aksioloji yanaşma; 2) sistemli yanaşma; 3) fəaliyyət yanaşması; 4) kulturoloji yanaşma; 5) humanist yanaşma.

Bildiyimiz kimi, aksiologiya həyata, mədəniyyətə aid sosial-estetik dəyərlərin təbiətindən, mahiyyətindən bəhs edir. Bu baxımdan tələbə şəxsiyyətinin formalaşdırılmasında aksioloji yanaşma, ilk növbədə onların dünyagörüşünün, mənəvi keyfiyyətlərinin formalaşdırılmasına təkan verən dəyərlərdən, dəyərli fikir və baxışlardan istinad mənbəyi kimi faydalanmağı nəzərdə tutur.

Tələbələrin şəxsiyyətinin formalaşdırılmasında ***sistemli yanaşma*** da mühüm əhəmiyyət kəsb edir. Xüsusi tədqiqatçılıq mövqeyi olmaqla gerçəkliyin qavranılması yolu olan problemə sistemli yanaşma təhlil olunan obyektə sistem kimi baxılmasına əlverişli imkanlar yaradır. Sistemli yanaşmanın mühüm tələblərindən biri budur ki, burada tədqiq olunan obyektin daxili və xarici əlaqələrinin çoxtərəfliliyinə xüsusi əhəmiyyət verilir. Ona görə də burada idrak məsələləri ilə yanaşı, işin təşkili məsələlərinin də öyrənilməsinə ciddi fikir verilməsi olduqca vacibdir.

Şəxsiyyətin formalaşması problemində ***kulturoloji yanaşma*** da mühüm əhəmiyyət kəsb edir. Pedaqogikada kulturoloji yanaşma bütövlükdə təhsilə mədəniyyət baxımından yanaşması anlamına gəlir. Yaxud təhsil mühitində həyata keçirilən mədəni proseslər kulturoloji yanaşmanın mahiyyətini ifadə edir. Təhsildə kulturoloji yanaşma təhsil prosesində ümummədəni, xüsusi və psixoloji, pedaqoji məsələlərin vahid kontekstdə birləşdirilməsi üçün imkanlar yaradır. Kulturoloji yanaşmanın təhsilin bütün pillə və səviyyələrində nəzərə alınması nəticə etibarilə keyfiyyətə təsir göstərir.

Digər bir elmi-nəzəri yanaşma humanist yanaşmadır. Qeyd etməliyik ki, ***humanizm*** insanı şəxsiyyət kimi dəyərləndirən ***dünyagörüşü sistemidir***. Azadlıq, hüquq və digər bu kimi mühüm keyfiyyətlər məhz bu sistemdə əhatə olunur.

Tarixi təcrübə və elmi araşdırmalar sübut edir ki, tələbə şəxsiyyətinin formalaşdırılması və inkişafı tələbənin fəaliyyəti ilə bilavasitə bağlıdır. Bu baxımdan ali məktəblərdə təhsilalanların şəxsiyyətinin formalaşdırılmasında ***fəaliyyət yanaşması*** mühüm əhəmiyyət kəsb edir. Məhz fəaliyyət yanaşması şəxsiyyətin öz həyat fəaliyyətini müəyyənləşdirməyə və onu tədricən yeniləşdirməyə, yenidən qurmağa, özünü qiymətləndirməyə imkanlar yaradır. Əslində fəaliyyət üsullarının seçilməsi, onun gedişinə nəzarət və nəticələrinin tətbiqi tələbələrin bu problemə bələdliliyindən xeyli dərəcədə asılıdır. Nəzəri məsələlərin mənimsənilməsi problem baxımından işin təcrübədə əlverişli tətbiq imkanlarını genişləndirir. Ona görə də təhsilalanların təhsil fəaliyyətinin məqsədyönlü təşkili və idarəolunmasında, təhsillə bağlı maraq və meyllərinin, peşə səriştəliyinin formalaşdırılmasında fəaliyyət yanaşmasının mühüm rol oynadığını qeyd edə bilərik.

Qeyd olunan məsələlərin nəzərə alınması ali təhsilin inkişafına, təhsilalanların səriştəli kadr, şəxsiyyət kimi formalaşmasına ciddi təsir göstərir.

Tələbə auditoriyasına bələd olmaq, akademik qrup, tələbə kollektivi haqqında aydın təsəvvürə yiyələnmək üçün təlim prosesində, mühazirə və seminar məşğələlərinin gedişində, auditoriyadankənar tədbirlərdə, onların asudə vaxtlarında tələbələri öyrənmək lazım gəlir. Öyrənmə prosesi həm ayrı-ayrı tələbələrin, həm də ümumilikdə tələbə qrupunun və tələbə kollektivinin tərbiyəlilik, təhsillilik səviyyəsi, meylləri, qabiliyyətləri, istedadları, zövqləri, yaradıcılıqları barədə zəruri məlumatların toplanmasına, onların hiss və həyəcanlarını, qayğılarını, çətinliklərini bilməyə kömək göstərir.

Professor-müəllim heyəti arasında elələri vardır ki, haqqında danışılan məsələlərə vaxt itirməyi lazımsız sayır, onun işi olmadığı qənaətinə gəlirlər. Təbii ki, belə mövqe tutmaq yolverilməzdir. Akademik qrupun (yaxud ayrıca tələbələrin, bir qrup tələbənin) irəlidə getməsi, yaxud geridə qalması, nümunəvi davranışı, yaxud intizamsızlığı, yüksək, yaxud aşağı göstəricilərə malik olması səbəbsiz deyil. Hər bir işin, hərəkətin, əməlin səbəbi olur.

Tələbəlik illəri gənclik yaş dövrünə təsadüf edir. Tələbə auditoriyası ilə iş aparan professor-müəllim heyəti öyrənməlidir: gənclik illərində şəxsiyyət hərtərəfli inkişaf mərhələsində olur. Orta təhsil illəri arxada qalmışdır. Bu və ya digər şəxs ali məktəblərdə, kolleclərdə təhsil alır, ordu sıralarında xidmət edir, yaxud sənaye, tikinti və s. müəssisələrdə əmək fəaliyyəti ilə məşğul olur. Bu dövrdə gənclər əxlaqi saflaşmaya, kamilləşməyə dünyagörüşünü genişləndirməyə meyllidirlər. Etik və birgəyaşayış qaydalarına, hüquq normalarına əməl etməyə, üzvü olduğu kollektivin və ailəsinin şərəf və ləyaqətini qorumağa, Vətəni müdafiə etməyə hazırdırlar. Onlar müstəqil ailə həyatı barədə düşünür, bəziləri ailə qurur, bəziləri nişanlanırlar.

Bütün bunlar gənclərdə məsuliyyət hissini artırır, seçdikləri ixtisaslar üzrə təlim məşğələlərinə davam edir, yaxşı bir mütəxəssis kimi yetişməyə çalışırlar.

Gənclər şəxsiyyətlərarası münasibətlər şəraitində bir-birinə nümunə olmağa, uğurlar qazanmağa səy göstərirlər. Onlar bir-birlərini qavrayır, bir-birlərinə qarşılıqlı təsir edirlər. Qızlarda ismət və şərəf, oğlanlarda kişilik ləyaqəti, namus kimi əxlaqi keyfiyyətlər təşəkkül tapır, ideya və əqidə sahibi olurlar. Gənclərdə vətənpərvərlik, milli iftixar hissi, özünüdərketmə, özünüqiymətləndirmə, milli mənlik şüuru, borc və məsuliyyət hissləri, yaradıcı fəallıq və sosial fəallıq, ünsiyyət fəaliyyət sahəsi inkişaf edir, mənəvi zənginliyə yiyələnirlər. Onlarda özünütəhsilə və özünütərbiyəyə tələbat formalaşır.

Tələbə şəxsiyyətinə bələd olmaqdan və tələbə auditoriyasını öyrənməkdən ötrü həm ümumpsixoloji tələblərə, həm də pedaqoji prosesin konkret şəraitinə uyğun tələblər əsas götürülməlidir.

Müəllim tələbələrin maraqlarının, meyllərinin, əyləncələrinin nədən ibarət olduğunu, ayrı-ayrı tələbələrin emosional vəziyyətini, onların yoldaşları ilə və müəllimlərlə qarşılıqlı münasibətlərinin xarakterini öyrənməlidir. Bu sahədə, təbii ki, tələbə şəxsiyyətinin pedaqoji-psixoloji metodlarla öyrənilməsiköməyə gəlir. Diaqnostik tədqiqatın nəticələri təhlil olunmalıdır.

Pedaqoji-psixoloji diaqnostika pedaqoji prosesin zəruri tərkib hissələrindən biri hesab olunur, təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi baxımından tələbə kollektivinin sosial-psixoloji səciyyəsini müəyyənləşdirmək üçün etibarlı vasitədir.

Təlim prosesinin idarə edilməsi tələbələrin hazırlıq və təhsillilik, tərbiyəliliyinin və inkişafının səviyyəsini və imkanlarını əsas götürür. Bütün bunlar isə diaqnozlaşdırmanın vasitəsi ilə təmin edilir. Diaqnozlaşdırma yunan mənşəli olub biliyi aydınlaşdırmaq mənasını verir. Diaqnozlaşdırma proqnozlaşdırma ilə sıx surətdə bağlıdır. Proqnozlaşdırma yunan mənşəlidir, irəlini, qabağı qabaqcadan görmək deməkdir.

Öyrənmə hər bir tələbənin psixi inkişaf prosesinin xüsusiyyətlərinin aşkara çıxarılmasına xidmət etməli, psixi inkişafın diaqnostikasının nəticələri bu nəticələrin mövcud normalarla müqayisəsi aparılmaqla qiymətləndirilməlidir.

Pedaqoji-psixoloji diaqnostika pedaqoji prosesin yaxşılaşdırılması, optimallaşdırılması və təkmilləşdirilmədən ötrü son dərəcə əhəmiyyətli rol oynayır. Müəllim diaqnostik metodikalar vasitəsilə pedaqoji proses, tələbələrin sağlamlığı, təlim və tərbiyənin keyfiyyəti, tələbə oğlan və qızların təhsillilik və tərbiyəlilik səviyyəsi haqqında məlumata yiyələnir, alınan məlumatları qruplaşdırır, təhlil edir, qiymətləndirir, pedaqoji prosesin və tələbələrin inkişafını proqnozlaşdırır.

Tələbə auditoriyasına yaxından bələd olmaqda ayrı-ayrı tələbələri öyrənmək də az əhəmiyyət daşımır. Bu, onların fərdi xüsusiyyətlərini öyrənməyi tələbata çevirir.

Əgər müəllim tələbənin hansı xüsusiyyətinə hansı yolla təsir göstərəcəyini dəqiq bilsə və bu işi uğurla başa çatdırsa, təbii ki, nəticə səmərəli olacaqdır. Çünki müəllim tələbənin güclü və zəif cəhətlərini, imkanlarını, bacarıq və qabiliyyətlərini bildiyindən daha çox və səhih məlumat toplamış olur.

Tələbələrin fərdiyyətinə bələd olmaq eyni zamanda təhsilverənin pedaqoji səriştəliliyi, pedaqoji ustalığı göstəricisidir.

Burada bir məsələ də diqqət mərkəzində dayanmalıdır: tələbə auditoriyası, ayrı-ayrı tələbə oğlan və qızlar müəyyən narahatlıq yaratdıqdan sonra deyil, erkən vaxtlardan onların şəxsiyyətini, fərdi xüsusiyyətlərini, müsbət və mənfi halları öyrənmək lazımdır. Bunu nəzərə alaraq, eksperimentə cəlb edilmiş müəllimlər ilk mühazirələrə və ya seminar məşğələlərinə başlayarkən akademik qrupun, yaxud qrupların kuratorlarından tələbələr barədə məlumat alırdılar. Bu, onların fəaliyyətini, tələbə auditoriyası ilə işini xeyli dərəcədə yüngülləşdirirdi.

Tələbələrin fərdi xüsusiyyətlərinin öyrənilməsi fasiləsiz proses xarakteri daşıyır. Bu xüsusiyyətlər dəyişilməz qalmır. Həm fəaliyyətin səciyyəsi, həm də bilik, bacarıq və vərdişlərinin formalaşması və təkmilləşməsi prosesində tələbənin şəxsiyyətində və intellektual sahəsində dəyişikliklər baş verir, onda öz temperamentini idarə etmək qabiliyyəti inkişaf edir. Bəzi səbəblərdən (müəllim-tələbə münasibətlərinin düzgün qurulmaması, tələbə yoldaşları ilə anlaşılmazlıq, ailə şəraiti, maddi durum və s.) tələbə şəxsiyyətində mənfi dəyişmələr meydana çıxa bilər. Müəllimlər mənfi təzahürlərin aradan qaldırılmasında maraqlı olmalı, onların tərbiyəsinə qayğı ilə yanaşmalı, tələbələri özünütərbiyəyə sövq etməlidirlər.

Tələbələrin öyrənilməsi zamanı bir sıra hallarda müəllim çətinliklərə rast gəlir. Ola bilər ki, tələbənin bəzi xüsusiyyətləri digər xüsusiyyətlərlə maskalansın.

Yaxud çətinlik tələbənin müvəqqəti vəziyyəti (bədbinliyə qapılması, ruhdan düşməsi, ailədəki ixtilaflar, hədsiz yorğunluq və s.) ilə bağlı ola bilər.

Tələbənin fərdi xüsusiyyətlərinin öyrənilməsi tələbə kollektivinin xüsusiyyətlərindən, kollektiv üzvlərinin qarşılıqlı münasibətlərindən ayrıca nəzərdən keçirilməməlidir. Tələbələrlə iş zamanı nəinki onların fərdi xüsusiyyətləri, həm də cinsi xüsusiyyətləri diqqət mərkəzində dayanmalıdır.

**Problemin aktuallığı**. Tələbə şəxsiyyətinin təşəkkülünə həsr olunduğundan aktuallıq daşıyır.

**Problemin yeniliyi**. Məqalədə tələbə şəxsiyyəti və onun hərtərəfli öyrənilməsi məsələsi diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Gənc tədqiqatçılar faydalana biləcəklər.

**Ədəbiyyat**


1. Abbasov, A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti / A.N. Abbasov. –Bakı: Mütərcim, –2010. –360 s.
2. "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası". Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı. "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr.
3. Cabbarov, R.N., Təhsil müəssisələrini idarəetmə məsələləri / R.N. Cabbarov. –Bakı, 2001. –132 s.
4. Cəbrayılov, İ.H. Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti. / İ.N. Cəbrayılov –Bakı: Mütərcim, –2011. –220 s.
5. Əmirov, M.M. İnsan və cəmiyyət: Ali məktəblər üçün dərs vəsaiti / M.M. Əmirov. –Bakı: ADPU-nin nəşri, –2010. –581 s.
6. Uşinski, K.D. Seçilmiş pedaqoji əsərləri / K.D. Uşinski. –Bakı: Azərnəşr, –1953. –316 s.


**Redaksiyaya daxil olub:** 21.11.2025